

# ERMƏNİ MƏKRİ: SONU GÖRÜNMƏYƏN HİYLƏ

*Bəhlul Eminli*

***Erməni-Azərbaycan məsələsinin qısa tarixi xronologiyası***

***I yazı***

İnsanların düşüncəsinə görə dünya "öz axarı" ilə gedir. Hərçənd, dünyanın öz axarı ilə gedib-gedmədiyi də mücərətdi. Çünki artıq bizim dünyanın əsas impuls mərkəzi olan Yerin (onun təkinin, ətraf mühitin) və kainatın "infrastrukturu"nun insanın birbaşa "təcavüzünə" məruz qaldığı aşkardır. Deməli, indi dünya həm də dağları söküb eşik-eşik edən, çayların məcrasını dəyişən, kanallar çəkib dənizləri birləşdirən və dünyanı məhvərindən çıxaran güclü silahlar yaradan insanların əlindədir. Yəni ki, dünyanın gələcək taleyinin insanlardan asılılığı mübahisə predmeti deyil.

Lakin, o da danılmaz həqiqətdir ki, insanların illərlə qurub yaratdığını ana təbiət bir anın içində yerlə yeksan edəndə onun "bağrını" dələn "bəşərin əşrəfi" hələ də aciz qalır, yerin-göyün hakiminə uduzur. Yenə də sonsuz iddia ilə yaranan bu ali varlıq acizliyi qəbul etmir, daha çoxuna nail olmaq üçün "niyyətinin ardınca mənzilinə doğru" carpışır – daha üstün güc olmaqdan usanmır ...

**Nəhayət, düşündüyümüz kimi...**

... Öz axarı ilə gedən dünya 1985-ci ilin təqvimini vərəqləyirdi. Mart ayı arxada qalmışdı dünyanın SSRİ adlı məkanında M.Qarbaçov dövrü başlamışdı. Bizim də buxovunda olduğumuz, planetin quru hissəsinin altıda birini zəbt edən Sovet imperiyası millətlərdən "mehriban ailə" ansambılı düzəldərək "möhtəşəm" Kommunizim xülyası ilə 70 ildən artıq idi ki, yol gəlirdi. Yolun uzunluğu insanları taqətdən salsa da hələ də verilən vədlər əlçatmaz və ünyetməz idi. İdeolojinin diqtə etdiyi məqamlar - bir çox gündəlik tələbat mallarının pulsuz olacağı fürsəti yetişmirdi ki, yetişmirdi. **Əksinə,** dünyanın yarıdan çoxunu yedirib-içirməyi, hərbi təhlükəsizliyini öhdəsinə almış xəyalpərəst sovet ideoloqları ölkəni uçrumun kənarına gətirib çıxarmışdılar.

1966-1982-ci illərdə L.İ.Brejnyev, 1982-1984-cü illərdə Y.V.Andropov və 1984-cü ilin 10 mart tarixindən 1985-ci ilin mart ayınadək - (M.Qarbaçova qədər) cəmi 11 ay K.U. Çernenko sovetlərin "sükanı arxasında" olmuşdur. Lakin vəd olunan işıqlı gələcək gəlib yetişməmiş, ölkədə ərzaq qıtlığı böhran həddinə çatmışdı. Ət-yağ adambaşına ayda 1 kiloqram və 0,5 kiloqram olmaqla talonla satılırdı.

Bir sözlə, istehlak mağazaları önündə uzun növbələr, insanlarda ruh düşgünlüyü, ölkədə məyusluq hakim idi. Böyük Oktyabr İnqilabının sovet adamına bəxş etdiyi 70 illik arzuların real mənzərəsi belə idi.

**Sonun başlanğıcı**

...Xülasə, sovetlər süqut edir, "yallandırdığı" ermənilər SSRİ prezidenti Mixail Qorbaçovun həyat yoldaşı Raisa Qorbaçovanın himayəsi altında baş qaldırırdı. İş o yerə çıxmışdı ki, Abel Aqanbekyan adlı iqtisadçıdan akademik düzəldib SSRİ prezidenti Mixail Qorbaçova iqtisadi məsələlər üzrə müşavir etmişdilər.

Bu məqam fürsətcil ermənıyə mövcud əlaqələri ilə sovetlərin yuxarı eşalonuna təsir etmək imkanı vermişdi. Mövqeyində özünü rahat hesab edən Aqanbekyan SSRİ kimi bir qapalı məkanın sərhədlərindən kənarda - erməni “sevdalıları”nın vətəni Fransada - nəhəng bir imperiyanın sonunun başlanğıcı ola biləcək addımlardan çəkinmir. Vəzifə səlahiyyətləi çərçivəsində səfərdən su istifadə edərək Parisin “İnterkontinental” otelində 16 noyabr 1987-ci ildə Fransada yaşayan ermənilərlə görüşə gedir. Həmin görüşdə o, - “Dağlıq Qarabağ Ermənistana qaytarılmalıdır” kimi sərsəm fikir səsləndirir. O, artıq bu barədə SSRİ rəhbərliyinə təklif verdiyini və həyata keçəcəyinə ümid etdiyini bildirir. “Akademik” fürsətdən ermənicəsinə “ustalıqla” yararlanaraq qan yaddaşında cəryan edən genetikasının murdar üzünü göstərir.

Çox keçməmiş SSRİ rəhbərinin də mövqeyi göstərdi ki, onun bu sərsəmləməsi təsadüfi deyilmiş. Məsələyə yanaşma eyni mərkəzdən qaynaqlanırmış. Yoxsa, bu necə mümkün olardı? Axı, ideoloji nöqteyi-nəzərdən sıradan bir akademikin səsləndirdiyi bu fikir vahid partiyalı sistem üçün yad və bağışlanmaz idi. Lakin, onun bu cəfəng iddiası ölkənin siyasi rəhbərliyində nəinki kəskin etiraza səbəb oldu, əksinə, himayə və dəstək aldı.

Aqanbekyanın bu açıqlaması görüşdən dərhal sonra fransız kommunistlərinin SSRİ-də yayımlanan “Humanite” qəzetində dərc olunur. Çox keçmir bu xəbərin əks-sədası gəlir: Ermənistanda və Dağlıq Qarabağda ermənilərin Azərbaycandan ayrılmaqla bağlı separat hərəkatı başlayır. Qərbi Azərbaycanda azərbaycanlılar işdən qovulur, uşaqlar məktəbə buraxılmır. Ermənistanda yaşayan azərbaycanlıların işığı, telefonu, suyu, qazı kəsilir. Onlara gündəlik tələbat malları satılmır və həyat şəraitləri dözülməz hala salınır. Tədricən mənəvi-psixoloyi terror fiziki terrorla əvəzlənir. İnsanlar öz ata-baba yuvasından didərgin salınır. Cəmi bir həftə ərzində bütün azərbaycanlı kəndləri boşaldılır, mal-mülkləri əllərindən alınır, ələ keçənlər qətlə yetirilirlər.

**Acı reallığı əks etdirən faktlar:**

1988-ci ildə Qərbi Azərbaycan ərazisində 261 azərbaycanlı kənd və qəsəbəsi boşaldılıb. Boşaldılan kənd və qəsəbələrin 89-da və 6 şəhərdə azərbaycanlılar qarışıq şəkildə - başqa millətlərin də nümayəndələri ilə birgə - yaşayırdılar. Lakin boşaldılan kənd və qəsəbələrdən 172-si xalis azərbaycanlılarla məskunlaşmışdı. Bütövlükdə sovet dönəmində ermənistan ərazisinə çevrilən Qərbi Azərbaycanda 49 min 928 azərbaycanlı ailəsində 250 min nəfər soydaşımız yaşayırdı. 1988–1989-cu illər soyqırımı zamanı onlardan 226 nəfəri ermənilər tərəfindən öldürülüb, (güllələnib, qəsdən avtomobil qəzasına salınıb, dağ yollarında donub və s.) 400 nəfərdən çox soydaşımız isə bədən xəsarəti alıb.

Dünyaya bəllidi ki, eramızdan əvvəl 2-ci yüzillikdə Qərbi Azərbaycan ərazisində əcdadlarımız yaşayıb, mədəniyyətlər yaradıblar və ərazinin əsas aborigen əhalisinə çevriliblər. 1805-ci ildə imzalanan Kürəkçay müqaviləsi, 1813-cü ildəki Gülüstan müqaviləsi, 1828-ci ildəki Türkmənçay müqaviləsi, 1829-cu ildəki Ədirnə sülh müqaviləsi ilə Qərbi Azərbaycan ərazisinə ermənilərin köçü həyata keçirilib və ərazi təxminən 70 faiz erməniləşdirilib. Köçürülən ermənilərin bir qisiminin orada oturuşa bilməməsinə və bu səbəbdən başqa yerlərə köç etməsinə baxmayaraq, 1828-1831-ci illərdə İvan Şopenin apardığı siyahıyaalmada erməniləri ərazinin aborigen əhalisi kimi göstərməyə çalışıblar. Halbuki, həmin zamanlar orada azərbaycanlılar böyük əksəriyyət təşkil edirdilər.

Regionun bundan təxminən 80-90 il sonrakı mənzərəsinə diqqət etsək, Azərbaycan Cümhuriyyəti dönəmində - 1918-1920-ci illərdə Avropada çap olunmuş xəritələrdə Azərbaycanın ərazisi 114 min kv.km olduğunu görərik. Lakin 28 aprel 1920-ci ildə Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycanda sovet hakimiyyəti (28 aprel 1920-ci il - 17 oktyabr 1991-cil) qurulur və bəlalarımızın yeni mərhələsi başlanır.

**Hiylə davam edir:**

- 1923-cü il iyulun 7-də - Sovetlərin işğalından cəmi 3 il sonra - Azərbaycan SSR Sovetləri Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır;
- 1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında həmin respublikaların Ali sovetləri qarşısında vəsatət qaldırmaq barədə" qərar qəbul edir;
- 1989-cu ilin noyabr ayında SSRİ Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin muxtariyyətliyini ləğv edir və birbaşa Azərbaycan SSR-yə qatılmasına dair qərar çıxarır;
- Cəmi bir neçə gün sonra - 1989-cu ilin dekabr ayının 1-də Ermənistan SSRİ-yə meydan oxuyur. Ermənistan SSR Ali Soveti və Qarabağ Milli Şurasının birgə iclası SSRİ Ali Sovetinin "Dağlıq Qarabağ Muxtar Vilayətinin muxtariyyətliyinin ləğv edilməsi və birbaşa Azərbaycan Sovet Sosialist Respublikasına qatılmasına dair" qərarını əsassız sayır və Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanla birləşməsi barədə açıqlama edir;
- Müstəqillik əldə etdikdən sonra – 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qanunu ilə Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazi vahidi ləğv olunur.

Bununla da Qarabağda sovetlərəqədərki tarixi adlar bərpa edilir. Stepanakert şəhəri – Xankəndi şəhəri, Mardakert şəhəri – Ağdərə şəhəri, Martuni şəhəri – Xocavənd şəhəri, Mardakert rayonu – Ağdərə rayonu, Martuni rayonu – Xocavənd rayonu adlandırılır. Əsgəran və Hadrut rayonları ləğv edilir. Xocalı şəhəri mərkəz olmaqla Xocalı rayonu yaradılır. Ləğv edilmiş Əsgəran rayonunun ərazisi Xocalı rayonunun tərkibinə, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə verilir. Xankəndi və Şuşa şəhərləri respublika tabeli şəhərlərin, Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonları respublika tabeli rayonların sırasına daxil edilir.

Azərbaycan Respublikası MM-nin 13 oktyabr 1992-ci il tarixli, 327 nömrəli Qərarı ilə Ağdərə rayonu ləğv edilib və ərazisi Tərtər, Kəlbəcər və Ağdam rayonları arasında bölüşdürülb.

**Birinci Qarabağ müharibəsi**

Cənubu Qafqazda son iki yüz illik tarix bu regionda ermənilərin dövlətləşdirilməsi prosesi ilə təzahür edir. Bu bir riyakar erməni-rus siyasəti idi. Planlı şəkildə hazırlanıb və ardıcıl olaraq həyata keçirilirdi. Tərəfsizlik iddiasında olan Rusiya tam olaraq erməni tərəfdə idi. Çirkin və məkrli niyyətin əsas hədəfi aydın idi: necə olursa-olsun Dağlıq Qarabağ Azərbaycandan qoparılmalıdır. İllərlə qurulan və fürsət gözləyən riyakar plan Azərbaycan üçün gözlənilməz idi. Son 70 ilin çal-çağırlı böyük sovet ailəsi və bu ailədə qonşuluq münasibətləri bizi çox arxayınlaşdırmışdı. Hətta, o qədər arxayınlaşmışdıq ki, sovetlər bizi işğal edib öz ailə üzvlərinə qatandan sonra çürbəcür bəhanə və hiylə ilə bizim torpaqları hissə-hissə, xımır-xımır ermənilərə pay edirdi

Özünü millət hesab edəndən heç vaxt rahatlıq bilməyən, taleyinə tanrıdan qara gün yazılmış ermənilərin zərrəcə ağılı olsaydı olduqları yerdə oturuşardılar. Alınmır, ona görə ki, bu millət heç kimlə yola gedən deyil. "Alternativ layihələr qrupu"nun üzvü Vahe Ovannisyan deyib: "Bəzən məndə belə təəssürat yaranır ki, Ermənistanda təkamül əks istiqamətdə gedir: insandan heyvana çevrilirik". Onlarla tanınmış erməni nümayəndəsindən buna bənzər nümunələr gətirmək olar.

Düz sözə nə deyəsən? Bu millət yaxşılıq bilən deyil. İllərlə Azərbaycanın, Türkün çörəyini yeyib, himayəsinə sığınıb, lakin ilk fürsətdə xainlik edib, arxadan vurub...

***İkinci yazı, növbəti sayda.***